**Beyləqan rayon mədəniyyət evi şəhər əhalisinin asudə vaxtlarının səmərəli keçirilməsi ilə bağlı son illər mədəni xidmətin səviyyəsini yüksəltmək üçün məqsədyönlü işlər görmüşdür.**



# Xidmətin səviyyəsi yüksəlir

Belə ki, Mədəniyyət evinin prespektiv illik iş planı hazırlanmış, görüləcək işlər, keçiriləcək tədbirlərin vaxtı və yeri müəyyənləşdirilmişdir.

İllik iş planına uyğun olaraq aylıq iş planları tərtib edilmişdir. İş planına müvafiq olaraq aidiyyatı işlər arasında konkret vəzifə bölgüləri aparılmışdır.

Rayon Mədəniyyət evində son ilyarım ərzində 162 mədəni-kütləvi tədbirlər hazırlanıb yüksək səviyyədə keçirilmişdir.

Belə ki, Mədəniyyət evində tarixi hadisələr, rəsmi dövlət tədbirləri, el bayramları və sair ilin əvvəlində təsdiq olunmuş iş planları əsasında həyata keçirilmişdir.

Mədəniyyət evində 70 mühazirə, məruzə və söhbətlər keçirilmişdir. Belə tədbirlər əsasən Azərbaycan Respublikası Prezidentinin xarici ölkələrə səfərlərinə, onun xarici dövlət başçıları ilə keçirdiyi görüşlər barədə səfərlərinin təbliğinə həsr edilmiş tədbirlərdir.

- Rayon Mədəniyyət evində 20 yanvar Milli matəm gününün 19-cu ildönümünə həsr edilmiş "Şəhidlər ölmür", 26 fevral Xocalı faciəsinin 17-ci ildönümünə həsr olunmuş "Əsrin Xocalı faciəsi", 31 mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş "Azərbaycanlıların soyqırımı və erməni vəhşiliyi" adlı ədəbi-bədii kompozisiyalar və dəyirmi masalar keçirilmişdir. 8 rayonun işğalı ilə əlaqədar Mədəniyyət evində anma mərasimləri keçirilmişdir. Belə ki, 8 may 1992- ci il Şuşanın işğalı, 18 may 1992- ci il tarixdə Laçının işğalı, 3-4 aprel 1993- cü il tarixdə Kəlbəcər rayonunun işğalı, 23 iyul 1993-cü il tarixdə Ağdam rayonunun işğalı, 23 avqust 1993-cü il tarixdə Cəbrayıl və Füzuli rayonlarının işğalı, 31 avqust 1993- cü il tarixdə Qubadlı rayonunun işğalı, 30 oktyabr 1993- cü il tarixdə Zəngilan rayonunun işğalı ilə əlaqədar tədbirlər və anma mərasimləri keçirilmişdir.

Tarixi əlamətdar günlərin qeyd edilməsi ilə əlaqədar 2 fevral Gənclər gününə həsr olunmuş Gənclər qarşısında "Mil" xalq çalğı alətləri ansamblının çıxışı, 8 mart Beynəlxaq Qadınlar günü münasibəti ilə "Günəş də ziyasın anadan alır" adlı ədəbi-bədii kompozisiya, 9 may faşizm üzərində qələbənin 64-cü ildönümü münasibəti ilə "Biz sizdən öyrəndik qəhrəmanlığı" adlı ədəbi-bədii kompozisiya, 10 may ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü münasibəti ilə "Bir ömrün salnaməsi" adlı mövzuda ədəbi-bədii kompazisiya, 28 may Respublika günü münasibəti ilə "Müstəqilliyi əbədidir Respublikanın" adlı ədəbi-bədii kompozisiya, 1 iyun Uşaqların Beynəlxalq müdafiəsi günü ilə əlaqədar "Gül üzlü, gülər üzlü uşaqlar" adlı mövzuda ədəbi-bədii gecə, 15 iyun Milli Qurtuluş günü münasibəti ilə "Yaşar Heydər dühası" adlı ədəbi-bədii kompozisiya, 26 iyun Azərbaycan Silahlı Qüvvələr günü ilə əlaqədar "Mil" xalq çalğı alətləri ansamblının əsgər və zabitlər qarşısında çıxışı, 14 iyul ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin ildönümünə həsr olunmuş "Əbədi yaşar insan" ədəbi-bədii kompozisiya, 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili gününə həsr olunmuş "Dilimizin saflığını hər birimiz qoruyaq" adlı dəyirmi masa, 18 oktyabr Dövlət müstəqilliyi gününə həsr olunmuş "Müstəqilliyi əbədidir ölkəmin" ədəbi-bədii kompozisiyalar geniş tamaşaçı kütləsi tərəfindən rəğbətlə qarşılanmışdır.

31 dekabr Dünya Azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə musiqili əyləncəli şənliklər, 12 noyabr Konstitusiya gününə həsr olunmuş "Qanunların aliliyini qorumaq və təbliğ etmək hər birimizin borcudur" adlı mövzuda dəyirmi masa, 17 noyabr Milli dirçəliş gününə həsr olunmuş "Vətən, torpaq, azadlıq və müstəqillik uğrunda mübarizəyə qalxan xalqımız" adlı dəyirmi masalar keçirilmişdir.

"N" saylı hərbi hissədə xalqımızın həyatında müstəsna rol oynayan, milli adət və ənənələrimizi özündə əks etdirən müqəddəs Novruz bayramına həsr olunmuş bayram şənliyi Mərkəzi idman meydançasında "Novruz gəlir, yaz gəlir" adlı teatrlaşdırılmış meydan tamaşası göstərilmişdir.

Görkəmli adamların, şair, yazıçı və incəsənət xadimlərin yubileyləri qeyd edilmişdir. Belə ki, 19 fevral 2009-cu il tarixdə şair, qəzəlxan Əliağa Vahidin anadan olmasının 115 illiyi münasibəti ilə (1894-1965) "Adın qalacaqdır yadigar" adlı ədəbi-bədii gecə, 22 fevral 2009- cu il tarixdə yazıçı dramaturq Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illiyi münasibəti ilə (1869-1932) "Zəmanəsinin yazıçısı" adlı mövzuda söhbət, Beyləqanlı şair Vəlyəddin Əhmədbəyin "Bu gedən karvanın görən köçü nə..." şeirlər kitabının təqdimat mərasimi, 24 mart 2009-cu il tarixdə yazıçı dramaturq Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi, yazıçı İsmayıl Şıxlının 90 illiyi, dramaturq Cəfər Cabbarlının 100 illiyi ilə əlaqədar söhbətlər keçirilmişdir. Bundan əlavə 26 mart 2009-cu il tarixdə xalq artisti Lütvəli Abdullayevin anadan olmasının 95 illiyi münasibəti ilə "Ölməz sənətkar" adlı mövzuda söhbət, 5 aprel 2009- cu il tarixdə bəstəkar Asəf Zeynallının yubileyi ilə əlaqədar (5 aprel 1909 -cu il) "Sevimli Bəstəkar", 7 aprel 2009- cu il tarixdə yazıçı Çingiz Abdullayevin anadan olmasının 50, (7 aprel 1959) yubileyi ilə əlaqədar "Tənqdiçi, yazıçı Çingiz Abdullayev" adlı söhbət, 12 aprel 2009- cu il tarixdə xalq artisti Seyid Şuşinskinin anadan olmasının 120 illik yubileyi münasibəti ilə ədəbi-bədii gecə, 21 sentyabr 2009- cu il tarixdə ədəbiyyatşünas Nizami Cəfərovun (21.09.1951) yubileyi münasibəti ilə "Novotor ədəbiyyatçı" adlı söhbət, 14 oktyabr 2009- cu il tarixdə xalq rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 100 illiyi münasibəti ilə (14.09.1909) "İstedadlı fırça ustası" adlı söhbətlər keçirilmişdir.

Rayon və şəhər əhalisinin asudə vaxtlarını şən və mənalı keçirilməsi üçün mütəmadi olaraq bədii özfəaliyyət kollektivlərinin və xalq teatr kollektivlərinin üzvlərinin iştirakı ilə istirahət günlərində tədbirlər təşkil olunur.

Mədəniyyət və turizm şöbəsi tərəfindən mədəni-hamiliyə götürülmüş hərbi-hissələrdə və sərhəd dəstələrində Mədəniyyət evinin "Mil" xalq çalğı alətləri ansamblı və instrumental ansamblın üzvləri mütəmadi olaraq əsgər və zabitlər qarşısında çıxış edirlər. Bu mədəni xidmətə görə komandanlıq Mədəniyyət və Turizm şöbəsinə Fəxri fərmanlar və təşəkkürlər etmişdir.

Mədəniyyət evində gənclərin və yeniyetmələrin dərnəklərə cəlb olunması, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün 1 xalq teatrı, 4 bədii özfəaliyyət kollektivləri, dərnəklər, 2 maraq klubları və həvəskar birliklər, 2 ödənişli dərnəklər fəaliyyət göstərir. Ümumiyyətlə 9 dərnəkdə 109 nəfər yeniyetmə və gənclər həvəslə məşğul olurlar. Ödənişli 2 dərnəkdən Mədəniyyət evinin hesabına 700 manat vəsait ödənilib.

Mədəniyyət evində fəaliyyət göstərən Taekvando dərnəyinin üzvləri Respublika daxili və xarici yarışlarda uğurla çıxış etmişlər. Məşqçi müəllim Sahib Nəsibovun yetirməsi Aytən Səmədli bu gün Taekvando üzrə Respublika çempionudur. Karate üzrə Avropa və dünya çempionu adını almışdır. Eyni zamanda Hüseynli Səfa Hüseyn oğlu karate idman növü üzrə Avropa çempionu olmuşdur.

2009-cu ilin Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Uşaq ili elan edilməsi ilə əlaqədar maraqlı tədbirlər də keçirilmişdir. Belə ki, 2 may 2009-cu il tarixdə "Uşaqlar bizim gələcəyimizdir" adlı musiqili əyləncəli şənlik, 25 may 2009-cu il tarixdə "Uşaqlar, deyin-gülün" adlı musiqili əyləncəli gecə, 1 iyun 2009- cu il tarixdə "Gülüzlü, gülərüzlü şən uşaqlar" musiqili əyləncəli ədəbi-bədii gecə, 12 iyun 2009-cu il tarixdə "İstedadlı uşaqlar" çərçivəsində əlil uşaqların rəsm əsərlərinin sərgisi, 27 noyabr 2009-cu il tarixdə "Deyin-gülün, şadlıq Sizə yaraşır" adlı səhərciklər təşkil etmişdir.

Hesabat dövrü ərzində Beyləqan rayonunun yaranmasının 70 illiyi münasibəti ilə tədbirlər də keçirilmişdir. "Mənim doğma Beyləqanım" adlı bayram tədbiri məhz bu qəbildəndir.

Rayon mədəniyyət evi Respublika Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi baxış - müsabiqələrində iştirak edərək müvafiq yerlər tutmuşdur. Belə ki, Əsədli Elbəy Əvəz oğlu "Şərq-Qərb dünyası uşaqların gözü ilə" 9-12 yaş qrupu üzrə keçirilən rəsm müsabiqəsində, Vüsalə Tahirli Mikayıl Müşfiqin 100 illiyinə həsr olunmuş "Deyilən söz yadigardır" bədii qiraət müsabiqəsin-

də, Elman İsrafiloğlu Sərhəd Qoşunlarının 90-cı ildönümü münasibəti ilə "Sərhədlərimizin keşiyində" keçirilən musiqi yaradıcılığı üzrə müsabiqədə, Gülsüm Hüseynli Cəfər Cabbarlının 110 illiyinə həsr olunmuş "Deyilən söz yadigardır" IV respublika bədii qiraət müsabiqəsində və Orxan Kərimov "Azərbaycanım mənim" Respublika vətənpərvərlik mahnıları ifaçılarının müsabiqəsində iştirak etmişlər.

Respublika Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə gənclərin həqiqi-hərbi xidmətə çağrılması ilə əlaqədar hər rüb rayon hərbi komissarlığında çağırışçılar qarşısında maraqlı konsert proqramları ilə çıxış etmişlər.

Rayon Mədəniyyət evinin kollektivi öz işlərini dövlətimizin mədəniyyət işçilərinin qarşısında qoyduğu vəzifələri yerinə yetirməklə əhaliyə daha yaxşı mədəni xidmət göstərir.

Mədəniyyət evində xalq teatrının kollektivləri bütün mədəni kütləvi tədbirlərin keçirilməsində fəallıq göstəriblər. Xalq teatrının kollektivi Hakim Əhmədovun "Kələk baş tutmadı", Arif Mədətovun "Şeytan" tamaşaları buna bir nümunədir.

Beyləqan rayonunun yaranmasının 70 illiyi münasibəti ilə də mədəniyyət evində Tədbirlər planı tutulmuş və o ardıcıllıqla həyata keçirilmişdir.

Belə ki, "Beyləqan dünən və bu gün" adlı mövzuda söhbət, Beyləqanlı yazıçı və şairlər ilə oxucuların görüşü, "Beyləqan bu gün inkişaf yolundadır" adlı dəyirmi masa, habelə rayon İcra hakimiyyəti başçısı cənab İrşad Əliyevin təşəbbüsü ilə rayonun yaranmasının 70 illiyi ilə əlaqədar muğam müsabiqəsi keçirilmişdir. Bu müsabiqəyə 35 nəfər qatılmış, 6 nəfər iştirakçıdan 3 nəfər Səadət Cavadov I yerə, Rüstəm Rüstəmov II yerə, Məhəbbət Səfərov III yerə çıxmışlar. Muğam ifaçılarını müşayiət edən ifaçılar (Rəşad Quliyev - tar, Təhmasib Quliyev - kamança, Vidadi Bağırov - nağarada müşayiət) etdikləri üçün diplom və pul mükafatlarına layiq görülmüşlər.

Muğam ifaçıları dəfələrlə müsabiqə mərkəzində və istirahət parkında rayon sakinləri qarşısında çıxış etmişlər. 70 illik yubileyi münasibətilə "Mənim doğma Beyləqanım" adlı musiqili-əyləncəli meydan tamaşası göstərilmişdir.

● **Cəbrayıl Məmmədov,**
***rayon mədəniyyət evinin direktoru***



**Məlumat üçün bildirək ki, Məmmədbəyova Səadət Fərhad qızı 1958-ci ildə anadan olub. Gəncə musiqi texnikumu və Müəllimlər İnstitutunu bitirib. Əmək fəaliyyətinə Göygöl uşaq musiqi məktəbində fortepiano şöbəsinin müdiri kimi başlayıb. Sonra eyni vəzifəni Gəncə 5 saylı uşaq musiqi məktəbində daşıyıb. 2006-cı ildən Sərkar kənd uşaq musiqi məktəbinin direktorudur.**

Məktəbdə 274 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 62 nəfər müəllim məşğul olur. Müəllimlərin 19 nəfəri ali təhsillidir. Söhbət zamanı Səadət xanım bizi maraqlandıran sualları belə cavablandırdı:

- Ötən illərdə olduğu kimi bu dərs ilində də məktəbimizin şagirdləri respublika və rayon səviyyəli müsabiqələrə fəal qoşulmuş, kollektivi bu möhtəbər tədbirlərdə layiqincə təmsil etmişlər.

Bunlara bir nümunə kimi Gəncə şəhərində keçirilən xalq kollektivlərinin müsabiqəsindəki çıxışımızı göstərə bilərik. Bu işə Respublikanın əməkdar mədəniyyət işçisi Şirin Rzayev rəhbərlik etmişdir. Bakı şəhərində keçirilən skripkaçıların müsabiqəsində isə IV sinif şagirdi Teymur Yusifov fərqlənmişdir. Hər iki halda